# Quba: rayonun sosial-iqtisadi inkişafı sevindiricidir

**Füsunkar təbiətə, saf insanlara malik ölkəmizin hər eli, hər obası özəlliyi ilə fərqlidir. Zirvəsi qarlı dağları, bol sulu, gur çayları, adına mahnılar qoşulan məşhur alma bağları olan, Fətəli xanın yadigarı Quba da belə məkanlarımızdandır.**

**Zəngin tarixə və bənzərsiz təbiətə malik Quba Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatında hər zaman əhəmiyyətli rol oynamışdır. Rayonun ərazisində 134 tarixi-arxeoloji abidə, o cümlədən eramızdan əvvəlki dövrlərə aid Gültəpə, Çarıqtəpə, Pirtəpə kurqanları ilə yanaşı, türbələr, məbədlər və məqbərələr, XIX əsrə aid Hacı Cəfər, Səkinəxanım və Cümə məscidləri mövcuddur. Əhalisi ayrıca etnoqrafik qrup təşkil edən və unikal xüsusiyyətləri ilə seçilən Xınalıq kəndi bu rayondakı qədim yüksək mədəniyyətdən xəbər verir. Quba rayonundakı müxtəlif dini konfessiyalara mənsub insanların əsrlərdən bəri birgə yaşaması ölkəmizdə tolerantlığın parlaq nümunəsi sayıla bilər.**

Quba rayonu ərazisində aparılmış arxeoloji qazıntılar qədim və yeni dövr tariximizin bir sıra qaranlıq səhifələrinə aydınlıq gətirmişdir. Araşdırmalar nəticəsində Qubada 1918-ci ildə erməni quldur dəstələri tərəfindən qətlə yetirilmiş insanların kütləvi məzarlığı aşkar edilmişdir. Baş verənlərin dünya ictimaiyyətinə çatdırılması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi üçün rayonda "Soyqırımı abidə-muzey kompleksi" yaradılmışdır.

Quba rayonunda son illər ərzində mühüm infrastruktur layihələri yerinə yetirilmiş, həmçinin "Şahdağ" mobil tipli elektrik stansiyası, müalicə-diaqnostika mərkəzi, Olimpiya idman kompleksi və ən müasir tələblərə cavab verən mehmanxanalar, turizm obyektləri, təhsil, mədəniyyət, sənaye müəssisələri inşa edilmiş, park və xiyabanlar salınmış, yeni yollar çəkilmişdir. Qubanın tarixi görkəminin saxlanılması, qədim abidələrinin bərpası və turizm imkanlarından daha dolğun istifadəsi üçün burada abadlaşdırma işləri daim genişləndirilir.

Ənənəvi olaraq meyvəçilik rayonu sayılan Qubada bu ilin doqquz ayında da xalq təsərrüfatının hər sahəsində böyük işlər görülmüş, yüksək səviyyəli abadlıq-quruculuq işləri aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən daxili və xarici siyasət kursu ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun durmadan artmasına və müstəqilliyimizin daha da möhkəmlənməsinə səbəb olmuşdur. Bunun nəticəsində hazırda ölkəmizdə mövcud ictimai-siyasi sabitlik respublikamızın iqtisadi baxımdan daha da güclənməsi və qarşıya qoyulmuş vəzifələrin icrası üçün münbit şərait yaratmışdır.

Məlum olduğu kimi, oktyabr ayının 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. İclasda çıxış edən möhtərəm Prezident dünyada baş verən qlobal proseslərə öz münasibətini bildirmiş, həmçinin, ölkəmizdə əldə olunan uğurlar və qarşıda duran vəzifələrdən söz açmışdır.



Dövlət başçısı qeyd etmişdir ki, 2016-cı il dünya iqtisadiyyatı üçün çox ağır olmuşdur. Belə ki, dünya iqtisadiyyatında böhran davam etmiş və bundan həm təbii resurslarla zəngin olan ölkələr, eyni zamanda, istehlakçı ölkələr əziyyət çəkmişdir.

—Rayonumuzda da 2016-cı ilin 9 ayı ərzində görülməsi planlaşdırılmış işlər ardıcıllıqla icra edilmiş, tədbirlər həyata keçirilmişdir — deyən, **Quba Rayon İcra Hakimiyyətinin başçısı Yaşar Məmmədov** rayonda doqquz ayın yekununa həsr edilmiş məruzə ilə çıxış edərkən bildirmişdir. Başçı qeyd etmişdir ki, rayon üzrə 2016-cı ilin 9 ayı ərzində ümumi məhsul buraxılışının həcmi 264 milyon 951 min 500 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 5% artım), sənaye məhsullarının ümumi həcmi 15 milyon 285 min manat (1% artım), kənd təsərrüfatı məhsullarının həcmi 113 milyon 642 min 500 manat (1%-ə yaxın artım), adambaşına düşən pullu xidmətlər 283 manat 10 qəpik (9% artım) olmuşdur.

Orta aylıq nominal əməkhaqqı 280 manat 20 qəpikdir. Rayonun 2016-cı ilin 9 ayı ərzində cəmi gəlirləri 20 milyon 659 min 700 manata qarşı 20 milyon 798 min 200 manat təsdiq edilmişdir. Hesabat dövründə rayonun yerli gəlirləri 9 milyon 68 min 700 manata qarşı 9 milyon 207 min 200 manat və ya 101,5 % icra edilmişdir.

Əhalinin fasiləsiz olaraq təbii qaz, elektrik enerjisi və içməli su ilə təmin olunması məqsədilə bir sıra işlər görülmüşdür. Rayonun Püstəqasım və Dəhnə kəndlərində qazlaşdırma işləri başa çatdırılaraq əhali mavi yanacaqla təmin olunmuşdur. Bundan başqa, rayonun Qam-qam, Rustov, Cədəri, Kələdağ, Hacıağalar kəndlərinin qazlaşdırılması davam etdirilmişdir.

Rayonun Birinci Nügədi, İkinci Nügədi, Amsar və Alekseyevka kəndlərində, Zərdabi qəsəbəsində müxtəlif diametrli yeni qaz xətləri çəkilmiş, Quba şəhərinin Qasım İsmayılov küçəsində, Fətəli xan küçəsində və "Qəçrəş yolu" yaşayış massivində korroziyaya uğramış yeraltı qaz boruları yenisi ilə əvəz olunmuşdur. Quba şəhəri Vidadi küçəsində vaxtı ilə pərakəndə şəkildə çəkilmiş müxtəlif diametrli qaz kəmərlərində itkilərin qarşısının alınması məqsədi ilə 167 metr uzunluğunda yeni qaz xətti çəkilmişdir. Zərdabi qəsəbəsində, Alekseyevka kəndində, şəhərin M.Ə.Rəsulzadə və Vidadi küçələrində istismar müddəti bitmiş müxtəlif diametrli 2624 metr uzunluğunda qaz xətti demontaj olunmuşdur.



1237 yeni fərdi yaşayış evi qazlaşdırılaraq məişət qaz sayğacı ilə təmin olunmuşdur. Qeyri-əhali üzrə isə 25 yeni abonent qeydiyyata alınmışdır. 405 nəfər əhali abonenti üçün "SMART" tipli sayğac quraşdırılmışdır.

2016-cı ilin 9 ayı ərzində əhali istehlakçıları tərəfindən sərf olunan qaza görə ödəniş 3 milyon 221 min 422 manat olmuşdur ki, bu da ümumi yığımın 103%-ni təşkil edir. Qeyri-əhali istehlakçıları tərəfindən sərf olunan qaza görə isə ödəniş 514 min 749 manat olmuşdur ki, bu da ümumi yığımın 96,1%-ni təşkil edir.

Elektrik enerjisi sisteminin gücləndirilməsi və istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə hesabat dövrü ərzində 6-10 kv-luq elektrik verilişi xətlərində 1088 ədəd istismara yararsız dayaq yeni metal dayaqlarla əvəz edilmiş, 2890 ədəd sınıq izolyator dəyişdirilmiş, 46 km yararsız naqil yeni AS-50 markalı naqillə, 4,1 km yararsız naqil isə yeni AS-35 markalı naqillə əvəz olunmuşdur.

Afurca kəndi ərazisində 1 ədəd gücü 1,6 MVA olan 35/10 kv-luq "Afurca" yarımstansiyası tikilərək istifadəyə verilmiş və bununla da həmin ərazilərdə elektrik enerjisinin keyfiyyəti artırılmışdır.

1960-1964-cü illərdə istismara verilmiş 20 km uzunluğunda "Qonaqkənd-Söhüb" hava xəttində, həmin illərdə istismara verilmiş 14,5 km uzunluğunda "Təngəaltı-Qonaqkənd" hava xəttində və "Qusar" hava xəttində yenidənqurma işləri aparılaraq istifadəyə verilmişdir. 1956-cı ildə inşa olunmuş Quba yarımstansiyasında da yenidənqurma işləri aparılmışdır.

2016-cı ilin 9 ayı ərzində ərzində istehlakçılar tərəfindən sərf olunan elektrik enerjisinə görə yığım 5 milyon 843 min 411 manat, yəni 80,58% təşkil etmişdir.

Hesabat dövründə rayonun içməli su təchizatı və kanalizasiya xidməti sahəsində də bir çox işlər görülmüşdür. Belə ki, Quba şəhərinin əksər küçələrində, "Qəçrəş yolu" və "Dəvədabanı" yaşayış massivlərində, Qırmızı qəsəbə, Timiryazev və Mirzəməmməd kəndlərində, 22-ci və 29-cu məhəllələrdə magistral və məhəllədaxili su xətlərində su sızmaları səbəbindən qazıntı işləri aparılaraq cari təmir işləri görülmüşdür.

Quba Sukanal İdarəsi tərəfindən 9911 abonentə xidmət göstərilir. Xidmət göstərilən abonentlərin 9486-sı əhali, 425-i isə qeyri-əhali abonentləridir. Su və kanalizasiya xidməti göstərilən əhalinin ümumi sayı 24 min 176 nəfərdir. 2016-cı ilin 9 ayı ərzində istehlakçılara 578 min 274 manatlıq su və kanalizasiya xidməti göstərilmişdir.

Əhalinin yüksək rabitə xidməti və internetlə təmin edilməsi üçün də müəyyən tədbirlər görülmüşdür. Rayonda genişzolaqlı internet xidmətinə olan tələbat nəzərə alınaraq kənd EATS-lərdə internet avadanlığı montaj olunmuş və abunəçilər daha keyfiyyətli internet xidməti ilə təmin edilmişlər.

Başçı bidirmişdir ki, hazırda rayonda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün hər cür şərait yaradılmışdır. Bununla əlaqədar rayonda hesabat dövründə sahibkarlığın inkişafı ilə əlaqədar İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 46 layihəyə 2 milyon 518 min 115 manat vəsait ayrılmışdır və nəticədə 96 yeni iş yerinin açılması üçün imkan yaradılmışdır.

Hesabat dövründə rayon üzrə imkansız 2433 ailəyə və ya 11 min 372 nəfər ailə üzvünə cəmi 3 milyon 405 min 930 manat məbləğində ünvanlı sosial yardım, 7602 nəfər vətəndaşa isə 4 milyon 881 min 711 manat məbləğində sosial müavinət ödənilmişdir.

Ötən müddət ərzində rayonda tikinti, abadlıq və quruculuq işləri diqqət mərkəzində saxlanılmışdır. Bu müddətdə şəhərin Heydər Əliyev prospektində "Məhdud fiziki imkanlı insanlar üçün Quba regional informasiya mərkəzi"nin tikintisi başa çatdırılmışdır. Rayon Mərkəzi Xəstəxanasının 220 çarpayılıq yeni binasının tikintisi sürətlə davam etdirilir. Hazırda 5-ci mərtəbənin tikintisi aparılır. Rayonlararası Psixonevroloji Reabilitasiya Mərkəzinin əsaslı təmir işləri yekunlaşmaq üzrədir.

Şəhərdə çoxmənzilli yaşayış binalarının bloklarının və fasadlarının təmiri və ərazilərinin abadlaşdırılması işləri aparılmış, Fətəli xan, Sahil, Vaqif küçələrində və SMU-30 yaşayış massivində yerləşən çoxmənzilli yaşayış binalarının dam örtüklərində təmir işləri aparılmış, ümumilikdə 1705 kvadratmetr həcmində dam örtüyünün yararsız hissələri təmir olunmuşdur.

Mərkəzi meydandakı və Heydər Əliyev adına parkdakı fəvvarələr təmir olunaraq işlək vəziyyətə gətirilmiş, park ərazisindəki üzlük daşları təmir olunmuşdur. Şəhər ərazisində nəzərdə tutulmuş abadlıq işləri çərçivəsində 19, 22, 24, 29 və 30-cu məhəllələrdə, "Qəçrəş yolu" yaşayış massivindəki küçələrdə, həmçinin Sabir və Natəvan küçələrinə asfalt örtüyü döşənmişdir. Şəhərin küçələrində ümumilikdə 40 min kvadratmetrdən çox asfaltlaşma işlərinin görülməsi planlaşdırılmışdır.

Şəhərin Heydər Əliyev prospektində yolətrafı hasarlar üzlənmişdir. 223-cü Atıcı Diviziya küçəsində və həmin ərazidə yerləşən "Şəhidlər xiyabanı"nın ətrafında yenidənqurma işləri hazırda davam etdirilir.

Rustov-Xanagah-Girdah, Rustov-Nöydün-Şuduq, Rustov-Məckə Xacə və Rustov-Bağçalı-Yekdar yolunda tikinti-quraşdırma işləri sürətlə davam etdirilmişdir. Rustov-Bağçəli-Yekdar, Rustov-Məckə Xacə, Çadəri, Hacıağalar və Qam-Qam kəndlərinə aparan yolların tikintisi tamamlanaraq asfalt örtüyü döşənmiş, Rustov-Xanagah-Girdah yolunda 10 km məsafədə yol yatağı tikilmiş, 4 kilometr məsafədə asfalt örtüyü vurulmuş, körpü keçidləri inşa edilmişdir. Rustov-Nöydün-Şuduq yolunun genişləndirilməsi və yol yatağının hazırlanması işləri başa çatdırılaraq çınqıl döşənmişdir.

Quba-Qonaqkənd avtomobil yolunun Amsar, Birinci Nügədi və İkinci Nügədi kəndlərinin ərazilərindən keçən hissəsinə, ümumilikdə 6,5 kilometr məsafədə yeni asfalt örtüyü döşənmişdir.

Rayonun Məckə-Xacə və Əspərasti kəndlərinin hər birində 180 şagird yerlik yeni məktəblərin tikintisi başa çatdırılaraq istifadəyə verilmiş, Ərməki və Çartəpə kəndlərinin hər birində 132 şagird yerlik tam orta məktəb binalarının tikintisi davam etdirilmişdir. Rayonun Zərdabi qəsəbəsindəki internat məktəbində təmir işləri və əlavə köməkçi binaların inşası aparılmışdır. Timiryazev qəsəbəsində 60 yerlik uşaq bağçası-körpələr evinin tikintisində tikinti-quraşdırma işləri yekunlaşmaq üzrədir.





1 sentyabr tarixdə rayonda baş vermiş sel və daşqınlar nəticəsində Quba-Xınalıq, Amsar-Tüləkəran-Zeyid yollarında yaranmış təbii fəlakətin nəticələri aradan qaldırılmış, yollar təmir olunmuşdur.

Y. Məmmədov demişdir ki, kənd təsərrüfatının inkişafı sahəsində də lazımi işlər görülmüşdür. Meyvə bağlarının sahəsi 14 min 736 hektara çatdırılmışdır ki, bunun da 14 min hektarı bar verən bağlardır. İndiyədək həmin bağlardan 111 min 513 ton meyvə toplanmışdır. Ötən dövrdə 1084 hektar əkilən sahədən 11 min 59 ton kartof, 171 hektar sahədən 900 ton qarğıdalı, 32 hektar sahədən 67 ton günəbaxan və 1497 hektar sahədən 15 min 90 ton tərəvəz istehsal edilmişdir.

Ötən ilin məhsulu üçün 12 min 972 hektar sahədə taxıl əkilmiş, bunun 11 min 124 hektarını buğda, 1848 hektarını isə arpa təşkil etmişdir. Həmin taxıl sahələrindən 34 min 790 ton məhsul toplanmışdır ki, bunun da 29 min 864 tonu buğda, 4926 tonu isə arpadır. Hazırda 2017-ci ilin məhsulu üçün 10 min 910 hektar sahədə şum aparılmış, bunun 440 hektarında buğda, 30 hektarında isə arpa səpilmişdir.

Rayonda iribuynuzlu mal-qaranın sayı 63 min 416 baş, xırda buynuzlu heyvanların sayı 255 min 401 baş olmuşdur. Hesabat dövrü ərzində 54 min 75 ton ət, 30 min 158 ton süd, 399 ton yun istehsal edilmişdir.

Qusarçay çayının sağ sahilində yerləşən Aşağı-Xuc kəndinin ərazilərinin sel və daşqınlardan mühafizə olunması məqsədi ilə 350 metr uzunluğunda daş-beton bəndlər inşa olunmuşdur. Qaraçayın sol sahilində yerləşən Birinci Nügədi kəndinin ərazisinin sel sularından mühafizə edilməsi məqsədilə 45 metr uzunluğunda daş-beton bənd inşa olunmuşdur.

"Gülüstan" SİB-nin əhatə etdiyi 2430 hektar ərazidə mövcud olan suvarma-paylayıcı sistemin təmir-bərpa tədbirləri üzrə aparılan işlər başa çatdırılmışdır.

Əhalinin içməli suya olan tələbatının və torpaq sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə Pirvahid, Küpçal, Qımılqışlaq və Aşağı-Atuc kəndində iki quyu olmaqla cəmi 5 ədəd subartezian quyusu qazılıb istifadəyə verilmişdir.

Mədəniyyət sahəsində də bir sıra işlər görülmüş, tədbirlər həyata keçirilmişdir. "2016-cı il - Multikulturalizm ili" ilə əlaqədar seminarlar və "dəyirmi masa"lar təşkil edilmişdir. Xaçmaz rayonunda keçirilmiş "Multikultural dəyərləri yaşadaq" adlı Beynəlxalq Festivalda rayonumuz 30 nəfərlik nümayəndə heyəti ilə təmsil edilmişdir.

2016-cı ilin iyun ayında Bakı şəhərində "Azərbaycan Doğma diyar" devizi ilə keçirilmiş V Milli Azlıqların İncəsənət Festivalında B.Səfəroğlu adına rayon Mədəniyyət Mərkəzinin "Atəşgah" folklor ansamblı iştirak etmiş və ansamblın R.Behbudov adına Mahnı teatrında və sonda Heydər Əliyev sarayında çıxışları təşkil edilmişdir. "Beynəlxalq Dolma Festivalı"nda da rayonumuz 6 nəfərlə iştirak etmiş və 11 növdə yarpaq dolması nümayiş etdirilmişdir.

Ötən 9 ay ərzində məktəblərin tədris, maddi-texniki bazasının inkişaf etdirilməsi, təlim-tərbiyənin keyfiyyətinin artırılması istiqamətlərində müəyyən işlər görülmüşdür. Yeni dərs ilində odun yanacağı ilə qızdırılan məktəblərin oduna olan ehtiyacları öyrənilmiş, bölgü aparılmış və məktəblər odun yanacağı ilə təmin edilmişdir. Payız-qış mövsümündə 100 məktəbin odun yanacağı və 36 məktəbin isə təbii qaz, dizel yanacağı və elektrik enerjisi ilə qızdırılması həyata keçirilir.

Bu ilin iyun ayında keçirilmiş buraxılış imtahanlarının nəticələrinə əsasən 1262 nəfər XI sinif məzunu attestat, 1987 nəfər IX sinif məzunu isə şəhadətnamə almışdır. 1 nəfər şagird məktəbi qızıl medalla bitirmişdir.

2016-cı ilin məzunlarından 302 nəfəri ali məktəblərə qəbul olunmuş, 16 nəfər məzun 600-dən, 52 nəfər məzun isə 500-dən çox bal toplamışdır. Məzunların 39,15 %-i qəbul imtahanlarında 300-500 arası bal toplamışlar.

Bakıda təhsil alan yerli və əcnəbi tələbələrin "Multikulturalizm ili" çərçivəsində Quba rayonuna səfəri təşkil edilmişdir. Gənclər Quba rayonuna səfər zamanı şəhərin gəzməli-görməli yerləri və dağ yəhudilərinin adət-ənənələri ilə tanış olmuşlar.

"Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Qobustan, Ağsu, Hacıqabul, Füzuli, Zəngilan, Cəbrayıl, Biləsuvar rayonlarının gəncləri rayonumuza səfər etmişlər.

Rayonumuzda "Müstəqil Azərbaycan-25: Multikulturalizmə və tolerantlığa nümunə ölkə" mövzusunda konfrans keçirilmişdir. Yerlərdə dini maarifləndirmə mövzusunda çoxsaylı tədbirlər və görüşlər təşkil edilmişdir.

"Gənclərin Sosial Tərəfdaşlıq Mərkəzi", "Yurdumun gözəllikləri gənclərin gözü ilə" layihəsi çərçivəsində Sabirabad rayon gənclərinin Qubaya səfəri təşkil olunmuş və səfər zamanı 50-dən artıq gənc iştirak etmişdir.

İdmançılarımız respublika və beynəlxalq səviyyəli yarışlarda da öz güclərini sınamışlar. Ümumilikdə 9 ay ərzində keçirilən 25 tədbirdə rayonumuzdan 120 nəfər gənc iştirak etmişdir. Keçirilən idman yarışlarında idmançılarımız respublika səviyyəli yarışlarda 28 qızıl, 19 gümüş, 27 bürünc, beynəlxalq yarışlarda isə 6 bürünc medal qazanmışlar.

Cari ilin fevral ayının 15-dən may ayının 15-dək rayon əhalisinin tibbi profilaktik müayinəsi təşkil edilmiş, 122 min 98 nəfər müayinədən keçirilmişdir.

İlin əvvəlindən uşaqların icbari dispanserizasiyası işlərinə başlanmış, 39 min 27 uşağın yerlərdə tibbi müayinədən keçirilməsi nəzərdə tutulmuşdur. Hazırda müayinələr Quba şəhər məktəblərində aparılır.

Ailə planlaşdırılması sahəsində nikaha daxil olanların pulsuz tibbi müayinələrdən keçirilməsi təmin olunmuşdur. Bu müddət ərzində rayon üzrə 2012 nəfər müayinədən keçirilmişdir.

26 sentyabr 2016-cı il tarixdə keçirilmiş böyük siyasi kampaniyada - referendumda qubalılar həmişə olduğu kimi, yenə də fəallıq göstərmiş, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin siyasətini dəstəklədiklərini və onun yanında olduqlarını bir daha nümayiş etdirmişlər.

Biz ölkə rəhbərliyi tərəfindən qarşımıza qoyulmuş vəzifələrin icrası məqsədilə bütün gücümüzü və qüvvəmizi sərf edərək işləməli, qurub-yaratmalıyıq. Bu işdə bütün qubalıları birlikdə olmağa, fəallıq nümayiş etdirməyə və möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməyə çağırıram.

**Söhrab SƏFİYEV,**
**"Respublika".**






